# "Azərbaycan Səfəvi hökmdarı - I Şah Abbas" mövzusunda konfrans keçirilib

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsi çərçivəsində Nizami rayonundakı 201 nömrəli tam orta məktəbdə "Azərbaycan Səfəvi hökmdarı - I Şah Abbas" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransda layihənin rəhbəri, Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov dövlətçilik tariximizdən, tarixi şəxsiyyətlərimizdən, tarixdə mövcud olmuş imperiyalarımızdan söz açıb. Bildirilib ki, Azərbaycanın beş min illik dövlətçilik tarixi var. Dünya tarixində ən qüdrətli şəxsiyyətlər yetişdirən xalqımız orta əsrlərin böyük dövlətlərini - Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar imperiyalarını yaradıb.

Y.Mahmudov Səfəvi hökmdarı Şah Abbas (1587-1629) barədə məlumat verib. Qeyd edilib ki, Səfəvilərin hərbi-siyasi tarixini, xüsusilə Azərbaycan Səfəvi döyüşçülərinin cəngavərlik tarixini və xalqımızın hərbi sərkərdəlik keçmişini öyrənmək üçün "Tarixe-aləmarayeAbbasi" əsəri misilsiz ilk mənbədir.

Vurğulanıb ki, Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının həyata keçirdikləri uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan Səfəvi dövləti Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrilib. Ağqoyunlu və Səfəvi dövlətlərinin bütün tarixi ərzində Qərbi Avropa ölkələri ilə ən geniş əlaqələr Uzun Həsəndən sonra Şah Abbasın hakimiyyəti illərində yaradılıb.

Çıxış edənlər bu cür tədbirlərin gənc nəslin tarixi şəxsiyyətlərimizin həyat və fəaliyyətinin dərindən öyrənilməsi baxımından böyük əhəmiyyət daşıdığını söyləyiblər.

Qeyd edək ki, "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsi çərçivəsində konfranslar 2015-ci ilin aprelindən keçirilir. Ötən müddətdə Bakının müxtəlif orta məktəblərində layihə çərçivəsində ümummilli lider Heydər Əliyevə, Şah İsmayıl Səfəviyə, Ağa Məhəmməd şah Qacara, Nadir şah Əfşara, Şah Təhmasib Səfəviyə və Tomirisə həsr olunan konfranslar keçirilib.